# Qüdrətli dövlətçiliyin başlanğıc məqamı



**Xalqımız müstəqillik tarixinin ən qürurlu və şərəfli günlərini yaşayır. Çünki Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasətinin nəticəsi olaraq Azərbaycanımız artıq hər birimizin arzusunda olduğu dövrə qədəm qoyub. Ərazi bütövlüyümüzün bərpa olunması, torpaqlarımızda erməni separatizminə son qoyulması kimi tarixi nailiyyətlərimiz belə bir həqiqəti təsdiq edir ki, Ulu Öndər Heydər Əliyevin əsaslarını müəyyən etdiyi, möhtərəm Prezidentimiz İlham Əliyevin yeni mərhələyə yüksəltdiyi siyasi kurs respublikamızı qarşısında dayanan bütün milli hədəflərə layiqincə çatdırır.**

Bu gün Milli Qurtuluş Günüdür. Əlbəttə, biz tarixin ən güclü Azərbaycanı barədə bəhs edərkən, müstəqilliyimizin ilk illərində baş verənləri də unutmur, Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında əvəzolunmaz tarixi xidmətlərini böyük minnətdarlıqla xatırlayırıq. Bu baxımdan, Milli Qurtuluş Gününü də qüdrətli dövlətçiliyimizin başlanğıc məqamı kimi hər zaman böyük ehtiramla qarşılayırıq.

31 il əvvəlin gərgin, böhranlı və faciəli günləri o dövrün şahidi olmuş hər kəsin xatirində qalır. Hakimiyyəti zorakı yollarla zəbt edərək ələ keçirmiş AXC-Müsavat qaragüruhunun bütün sivil norma və tələblərdən uzaq idarəçiliyinin nəticəsi olaraq dövlət aparatı faktiki olaraq tənəzzülə uğramış, iflic olmuşdu. Bunun nəticəsi kimi bir tərəfdən Ermənistan işğalçı hücumlarını artırır, digər tərəfdən respublikamızın ayrı-ayrı bölgələrində separatçılıq meyilləri baş qaldırırdı. Ayrı-ayrı şəxslərin nəzarətində olan silahlı dəstələrin başıpozuq əməlləri isə cinayətkarlığı artırmışdı. Ölkədə xaos və anarxiya baş alıb gedirdi və Azərbaycan faktiki olaraq nəiki müstəqilliyini yenidən itirmək, parçalanmaq təhlükəsi qarşısında idi.

Ümumiyyətlə, həmin dövrü təhlil edəndə görürük ki, yaranmış dərin böhranın əsas səbəbi ölkəyə güclü və qətiyyətli liderin rəhbərlik etməməsi idi. Bu baxımdan, hələ 1992-ci ildən etibarən vəziyyətin dramatikləşməyə doğru getməsi ölkəyə güclü siyasi liderin rəhbərlik etməsini şərtləndirirdi. Bu baxımdan, 1992-ci ilin noyabrında Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaranması və qısa zamanda on minlərlə insanın bu təşkilatın sıralarına qoşulması göstərirdi ki, xalqımız özünün nicatını məhz Ulu Öndərin siyasi hakimiyyətə gəlişində görür. Çünki Heydər Əliyev həm sovet Azərbaycanına rəhbərlik etdiyi, həm Kremldə çalışdığı, həm də Naxçıvanda fəaliyyət göstərdiyi dövrlərdə öz xalqına layiqincə xidmət etmiş, qarşısında dayanan bütün tarixi missiyaları uğurla həyata keçirmişdi.

Bu mənada 1993-cü ilin iyun ayının əvvəllərində Gəncə şəhərində baş vermiş hadisələrdən sonra xalqımızın Ulu Öndər Heydər Əliyevi Bakıya, siyasi rəhbərliyə çağırması dövlətçiliyimizin yaşadılması, kövrək olan müstəqilliyimizin qorunması, Azərbaycanın xilası üçün qəbul edilən tarixi ümumxalq qərarı idi. Xalqımız ancaq Heydər Əliyevin respublikamızı xilas edəcəyinə xalqımız əmin idi.

1993-cü il iyun ayının 9-da Heydər Əliyevin Naxçıvandan Bakıya gəlməsi xalqımız tərəfindən böyük sevinclə qarşılandı. Artıq həmin gündən ölkədə siyasi-ictimai ovqat tamamilə dəyişmişdi, hər kəsin narahatçılığı nikbin əhvali-ruhiyyə ilə əvəz olunmuşdu. Həmin günlərdə Gəncəyə səfər edən Heydər Əliyevin həyata keçirdiyi böyük missiya xalqımızı yeni faciələrdən xilas etdi.

1993-cü il iyun ayının 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə Azərbaycanın müstəqillik tarixində yeni mərhələnin əsasını qoydu. Ona görə ki, Ulu Öndərin siyasi hakimiyyətə gəlişi Azərbaycanın xilası, xalqımızın qurtuluşu demək idi. Ümumiyyətlə, 1993-cü ildə ölkəni gərgin hərbi-siyasi böhrandan çıxarmaq kimi bir missiyanı öz üzərinə götürmək həm risk, həm də qətiyyət tələb edirdi. Amma 31 il əvvəl baş verənləri təhlil edəndə görürük ki, yalnız Heydər Əliyev kimi nəhəng şəxsiyyətlər bu missiyanın öhdəsindən gələ bilərdilər.

Ulu Öndərin tarixi missiyası isə bir neçə amilə söykənirdi. Bunlar xalqın Heydər Əliyevə olan sarsılmaz inamı və dəstəyi, Heydər Əliyev şəxsiyyətinin böyüklüyü və Ulu Öndərin öz Vətəninə sonsuz sevgisi idi. Məhz bu üç amil milli qurtuluşumuzun əsasında dayandı. Bütün bunlar Azərbaycanı Xalq Cümhuriyyətinin acı taleyini yaşamaq aqibətindən və parçalanmaqdan xilas etdi. Azərbaycanı xilas edən, müstəqilliyimizi yaşadan Heydər Əliyev müasir dövlətçiliyimizin əsaslarını yaratdı, müasir Azərbaycan dövlətinin banisinə, xalqımızın Ümummilli Liderinə çevrildi.

Bu gün Azərbaycanın inkişafı, güclü beynəlxalq mövqeləri göstərir ki, Heydər Əliyev siyasəti layiqincə davam etdirilir, Ulu Öndərin ideyaları dövlətimizin və xalqımızın yüksəlişinə işıq salır. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı regionda və dünyada söz sahibinə çevirib və təsadüfi deyil ki, respublikamız beynəlxalq birliyin nüfuzlu üzvü kimi tanınır. Məhz bu siyasətin nəticəsi olaraq torpaqlarımız da işğaldan azad edildi, ərazi bütövlüyümüz təmin olundu.

Əgər Heydər Əliyev öz qurtuluş missiyası ilə Azərbaycanı parçalanmaqdan xilas etmişdisə, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev torpaqlarımızı işğaldan azad etdi, ikiəsrlik erməni separatizminə son qoydu və Azərbaycan xalqını qalib xalq etdi. Ona görə indi xalqımız özünün ən qürurlu günlərini yaşayır.

**Cavid OSMANOV,**
***Milli Məclisin deputatı,***
***YAP İdarə Heyətinin üzvü***

Azərbaycan.- 2024.- 15 iyun, № 126.- S.8.